# ŞİRİN HÖKMÜ

***Şahvələd Əliyev 1950-ci ildə Lerik şəhərində anadan olmuşdur.***

***1967-ci ildə orta məktəbi bitirmiş, 1970-72-ci illərdə ordu sıralarında xidmətdə olmuşdur.***

***O, 84 saylı Texniki-ixtisas məktəbini, Ə.Əzimzadə adına Rəssamlıq Texnikumunu, Moskvada Xalq İncəsənət Universitetini və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir. Yumoristik povest, hekayə, şeir və karikaturalardan ibarət "Sicimqulunun sərgüzəştləri", "Dağ çayında qeyri-adi hadisə", "Ailə faciəsi" və "Nankör övlad" kitablarının müəllifidir.***

***O, Azərbaycan Dövlət Rəssamlar İttifaqının və Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin üzvüdür. Əsərləri bir sıra beynəlxalq sərgilərdə nümayiş etdirilib və kataloqlara düşmüşdür.***



***2008-ci ildə Yasamal rayon mədəniyyət mərkəzində 2-kitabının təqdimat mərasimi və karikaturalardan ibarət sərgisi açılmışdır. Rəssamlıqda karikatura janrında çalışır. 1981-ci ildə keçirilən karikatura müsabiqəsinin beynəlxalq sərgilərdə nümayiş etdirilib və kataloqlara düşmüşdür. Hal-hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin müəllimidir.***

***2012-ci ildə isə, "Ailə faciəsi" kitabının təqdimat mərasimi Yasamal rayon Heydər Əliyev mərkəzində keçirilmişdir. 2017-ci il avqustun 3-də Lerik rayon mədəniyyət sarayında Rəssamlar İttifaqının təşəbbüsü ilə Rəngkarlıq, Qrafika və karikaturalardan ibarət fərdi yaradıcılıq sərgisi açılmışdır.***

***Ailəlidir, 5 övladı, 11 nəvəsi var.***

Bütöv bir meşə ərazisinin hökmdarı olan şir, son zamanlar çox narahatlıq hissi keçirirdi.

Meşədə sakit şəraitdə yaşayan heyvanlara birdən-birə nə oldu? - Niyə, onların arasına çaxnaşma düşdü. Və onlar bir-birini qırmağa başlayıblar. İş o dərəcəyə çatıb ki, hətta onlar hökmdarın qoyduğu qayda-qanunlara da məhəl qoymurlar. Bu özbaşınalıq çox davam edə bilməz! - deyə, şir, dərin düşüncələrə daldı. - "Mən bunun qarşısını hökmən almalıyam və tezliklə səbəbkarları tapıb, cəzalandırmalıyam. Çünki, bütün heyvanlar mənim əmrimə görə başlarını aşağı salıb, öz işləri ilə məşğul olurdular. Kimin həddi var ki, mənim əmrimdən çıxıb, qanunlara riayət etməsin. İndi iş o dərəcəyə çatıb ki, Allahın bu cılız xoruzu da cızığından çıxıb, əmrə tabe olmur. Onun vəzifəsi o idi ki, tezdən bir-iki dəfə banlayıb, heyvanları yuxudan oyatsın və onlar öz işləri ilə məşğul olsunlar. İndi bu cılız xoruz yerli-yersiz o qədər banlayır ki, daha mənim baş-qulağım gedib.

Hələ bu, bülbülü demirəm, o vaxtı-vaxtında öz məlahətli səsi ilə məni feyzyab edirdi və mənə ruh verirdi. İndi hanı, - o, oxuyur? - Ay-hay, nə oxumaq, o, yerli-dibli itib, yoxdur!

Bəh-bəh, eşşəklər anqıranda, elə mənə qol-qanad verirdi ki, mənim güc-qüdrətim artırdı və mən neçə-neçə yeni, gözəl meşələr fəth edirdim.

Son zamanlar nə eşşək var, nə də anqırtı-manqırtı. -Heç nə eşitmirəm.

Bundan bərk əsəbləşən Şir nərildədi. - Və mən bütün bu neqativ hallara tezliklə son qoymalıyam" - deyə, şir düşüncələrdən ayrılıb sanki, yuxuda idi ayıldı və elə bir nərə çəkdi ki, bütün meşədə olan heyvanlar bu səsdən lərzəyə gəlib, hökmdarın iqamətgahına doğru qaçmağa başladılar.

Bütün heyvanlar bir göz qırpımında meydana yığıldı. Hələ də hirsi soyumayan şir, handan-hana başını qalxızıb, heyvanlara acıqla baxdı. Və nəzərini xoruza zillədi. Xoruz qorxudan tir-tir əsməyə başladı. Və hökmdara qorxa-qorxa baxıb "Quq-qulu... q..uu" banlamaq istəyəndə şir onun üstünə qışqırdı: - Ədə, ay başdan xarab, səfeh xoruz, indi banlamaq vaxtıdır, sən banlayırsan?! - De görüm sənə nə olub ki, sən gecə-gündüz vaxtlı-vaxtsız, yeri gəldi-gəlmədi hey banlayırsan və mənim zəhləmi tökmüsən.

- Qudurmusan! -İndi, sənə kim icazə verib ki, mənim hüzurumda, - utanmaz-utanmaz banlamaq istəyirsən.

- Ay axmaq! Gicbəsər, Xoruz!

Şir nərildədi; - Cəllad!

Canavar əlində qılınc hazır vəziyyətdə dayandı: -Üz xoruzun başını. - Deyə, şir əmr etdi.

Hökm o dəqiqə yerinə yetirildi.

Şir üzünü heyvanlara tutub dedi: - Qoy, bu hökm bütün xoruzlara dərs olsun! - Sonra o, üzünü bülbülə tutdu.

Bülbül başını aşağı salıb, qorxudan büzüşmüşdü.

Şirin qorxusundan hətta, səsi də batmışdı. Başını qalxızıb hökmdara baxdı, ağzını açıb oxumaq istəyəndə, şir qışqırdı.

-Kəs səsini, axmaq bülbül, neçə vaxtdır sənin səsinə həsrət qalmışam, indi mənim üçün oxumaq istəyirsən? - ,Maymaq! - Mənim meşəmdə, məmləkətimdə yeyirsən - içirsən, şellənirsən məni feyzyab etmək əvəzinə gedib başqa meşələrdə hökmdarlar üçün cəh-cəh vurursan - satqın!

-Cəllad! - Kəs, bu bülbülün satqınlıq etdiyinə görə dilini!

Canavar o dəqiqə hökmü yerinə yetirdi.

Növbə eşşəyə çatanda, şir hirslə qışqırdı: - Ədə, ay qurumsaq, qanmaz eşşək, sən haralarda itib-batmısan? -

Hə...ə!

Eşşək qulaqlarını şəkləyib, gözləri bərəlmiş halda, şirə qorxa-qorxa baxaraq susurdu.

Şir nərə çəkib qışqırdı: - Ədə, ay vicdansız, şərəfsiz, maymaq eşşək, sənnən deyiləm?! - Niyə cavab vermirsən?

Qorxudan tir-tir əsən eşşək, hədəqəsindən çıxmış gözləri ilə şirə baxdı. - Və anqırmaq istiyəndə şir onun səsini kəsdi: -Kəs səsini, başdan xarab, gicbəsər heyvan, sən haralarda itib-batmısan? -Neçə vaxtdı sənin səsini eşitmirəm

- Niyə anqırmırdın? - Sənin ucbatından gör neçə vaxtdır bir meşə belə, fəth etməmişəm. - Başdan xarab, uzunqulaq heyvan!

-Cəllad! - canavar əlində qılınc hazır vəziyyətdə dayandı.

-"Kəs bunun qulaqlarını!"

Eşşəyin gözlərindən yaş sel kimi axmağa başladı: və başladı şirə yalvarmağa:

-Hökmdar! - Qələt eləmişəm, daha bir də heç vaxt qanunu pozmaram. - Düzdü, mən qanunu pozub, anqırmamışam, Vallah, bundan sonra tez-tez anqıraram.

Məni yoldan tülkü çıxartdı. O, mənə dedi ki, şir sənin bədheybət səsindən hər dəfə anqıranda rahat yata bilmir.

Əsəbləşir! - ona görə də mən qorxudan anqırmırdım.

Şir dedi: - "Sən gərək hökmdarın qoyduğu qayda-qanunlar ilə hərəkət etməli idin. Bic tülkünün sözü ilə yox! - Eşitdin! Axmaq, səfeh başdan xarab uzunqulaq.

- Kəsin onun qulaqlarını - deyə, şir əmr etdi: - Cəllad canavar, eşşəyin ayaqlarını bağladı və bir anın içində hökmü yerinə yetirərək eşşəyin qulaqlarını kəsdi.

Eşşəkdən elə bir anqırtı çıxdı ki, bütün heyvanların qulaqları batdı. Hamı vahimələndi. Ancaq, bu anqırtı şirə ləzzət elədi. Bir anlığa onda ruh-yüksəkliyi yaratdı.

Eşşək birtəhər ayağa qalxıb, qulaqlarının qanı axa-axa meşənin dərinliklərinə tərəf götürüldü.

Şir üzünü heyvanlara tutub dedi: - Gördünüz mənim hökmümü və heyvanlara verdiyim cəzanı, bu sizin hamınıza aiddir. Əgər bundan sonra sizlərdən kimsə belə hallara yol versə, sizin də aqibətiniz bax bu heyvanların aqibəti kimi olacaqdır.

Bir az keçmişdi hökmdar heyvanlardan dünya görmüş qocaman, təcrübəli bir ağsaqqal çaqqalı yanına çağırtdırdı və ona belə bir tapşırıq verdi: - Sən hiyləgər tülkünün harada olursa-olsun, yerin altında da - üstündə də olsa axtarıb tapmalısan və mənim hüzuruma gətirərsən.

Eşitdin! - Çaqqal "baş üstə" hökmdarım deyib, şirə baş əyərək oranı tərk etdi.

Təcrübəli çaqqal fikrə getdi. Tülkünün harada olmasını xəyalında canlandırdı. Bir az fikirləşəndən sonra o, meşənin dərinliklərinə doğru hərəkət etməyə başladı.

Qocaman çaqqal təxmini tülkünün yaşadığı yeri bilirdi. O, fikirləşib yadına saldı ki, Tülkü meşə ərazisini ayıran çayın şir tərəfə olan ərazisində kolluqlarla örtülmüş təpənin ətəyində olan yuvasında yaşayır. O, həmin istiqamətə hərəkət edərək, tez bir zamanda yuvanı tapdı. Və yuvanın ətrafında olan kolun dibində gizlənib tülkünü güdməyə başladı.

Bir az keçmişdi, tülkü yanında bir tülkü məşuqəsi ilə gülə-gülə, şad-xürrəm yuvadan çıxdı və çaya çimməyə getdilər.

Çaqqal onları görəndən sonra oranı tərk etdi. Və o, meşədə yaşadığı yerə gedib çaqqalları yanına çağırdı. Və onlara ciddi tapşırıqlar verdi...

Hiyləgər tülkü isə öz hiyləgərlik peşəsini davam etdirərək, heyvanlara cürbəcür yeni-yeni tələlər heyvanlara qururdu. Və o, şad-xürrəm, kef içində yaşayırdı. Onun peşəsi o idi ki, öz yağlı dili ilə heyvanlar arasında çaxnaşma salaraq onları qızışdırır və heyvanları bir-biri ilə düşmən edirdi. Bundan istifadə edən tülkü girişirdi onların ət yeməklərinə o qədər yeyib-içib harınlamışdı ki, hətta o, canavarları da geridə qoymuşdu.

Hiyləgər tülkü gör, heyvanları necə yoldan çıxardı?

Məsələn, o, Ayıya yaltaqlanıb deyirdi: - Özünü gözlə ha! - Canavarlar sənə tələ qurublar. Məqam axtarırlar ki, səni parçalayıb yesinlər. Sən ehtiyyatlı ol və özünü onlardan gözlə. Canavarları harada gördün, onlara aman vermə. Və o dəqiqə hücum edib, onları parçala. Yoxsa, onlar sənin axırına çıxarlar.

Növbəti dəfə o, Pələngi görəndə dilini çıxarıb yazıq-yazıq ona baxıb deyirdi: - Bilirsən, Pələng qağa, mənim sənə çox böyük hörmətim var, ancaq, sənə deməyim odur ki, özünü o qanmaz ayıdan gözlə! - O gün onun Ayılarla sənin haqqında danışdıqlarını eşitdim. Onlar sənə tələ qurublar.

Səni harada görsələr onu bil ki, səni o dünyalıq edərlər. Eşitdin! - Səni mən istədiyimə görə deyirəm, yoxsa mənim nəyimə lazımdır ki, başımı cəncələ salım. Yəni deməyim odur ki, sən qaz kimi ayıq olmalısan, - vəssalam!

Bu minvalla o, yağlı dilini işə salıb, heyvanlar arasında bu cür təbliğat işi apara-apara onların arasında ədavət toxumu səpirdi.

Tülkü artıq öz məqsədinə nail olmuşdu. O, meşədə heyvanları bir-birinin üstünə salıb, qırdırırdı. Qocaman təcrübəli çaqqalın məsləhəti ilə, çaqqallar tülkünün yuvası önündə tələ qurub, hazır vəziyyətdə dayanmışdılar. Dünyanı vecinə almayan tülkü, yeyib-içib öz məşuqəsi ilə yuvasından çıxıb çaya çimməyə gedəcəkdi. O, fısıldaya-fısıldaya, ətli sifəti pörtmüş halda, yuvasından çıxdı. Və araxaya baxdı ki, görsün məşuqəsi onun ardınca gəlir, yoxsa yox!

Bu dəmdə o, ani sürətdə ona qurulan tələyə düşdü. Çaqqallar dərhal toru onun üstünə atdılar və bir göz qırpımında onu tora salıb, başda təcrübəli çaqqal olmaqla tülkünü şirin hüzuruna gətirdilər.

Qocaman çaqqal tülkünün ayaqlarını bağlatdırıb şirin qabağına tulladı. Şir təcrübəli çaqqala öz razılığını bildirib, tülküyə acıqla baxdı. Bərk qəzəblənmiş şir dilləndi: - Ədə, ay dəyus, sən hələ mənə də görüm, sən kimsən ki, mənim qabağımda at oynadırsan? - Ədə, ay qurumsaq, hələ sən mənə de görüm sən hansı mənsəbə qulluq edirsən? - Ay ata-anasından bixəbər bic-bala. Sən kimsən axı, mənim qoyduğum qayda-qanunlara məhəl qoymursan. Hətta məni də saymayıb, kefin istədiyin kimi hərəkət edirsən. Meşədə bütün heyvanları qatmısan birbirinə, çaxnaşma salmısan onların arasına. Mənim hökmdar olduğum meşədə, kefin istədiyin kimi gəzirsən, yeyirsən-içirsən və mənim heyvanlarımın arasında təxribat aparıb, asayişi pozursan və hətta sən hökmdarlıq xəyalına düşmüsən?! - İndi gör mən sənin başına nə oyun gətirərəm. Yaltaq, köpək oğlu!

Tülkü yağlı dilini işə salmaq istəyəndə, şir əmr etdi: - Kəsin onun dilini!

Cəllad o dəqiqə əmri yerinə yetirdi.

Sonra, şir təcrübəli çaqqala əmr etdi: - Tülkünün cəsədini ən hündür ağacdan asın! -Qoy, heyvanlar görsünlər ki, hiyləgərliyin, xəyanətin, heyvanlar arasında çaxnaşma salanın aqibəti bax, bu cür sonluqla tamamlanır. Bütün heyvanlar qoy bundan ibrət dərsi götürsünlər. Biz, Allahın köməyi ilə tülkü və tülkükimilərin cəzasını verdik...

Sonra, şir, heyvanlara sözünü belə bir sonluqla tamamladı: -Eşidin! - Bundan sonra siz meşədə rahat yaşaya bilərsiz. Bizim vəzifəmiz sizi qorumaq və sizin həyat şəraitinizi yaxşılaşdırmaqdan ibarətdir.

Və biz heç vaxt, tülkü kimi xəyanətkarlara sizin aranızda olmasına yol verə bilmərik. Biz Allahın köməyi ilə onları aşkarladıq və sizin qarşınızda onları cəzalandırdıq.

Sizin isə, əsas vəzifəniz və borcunuz, Vətənə sədaqətlə xidmət etmək, öz səmərəli işinizlə, xalqı sevindirmək və xariqələr yaratmaqdan ibarət olmalıdır.

Bu, müqəddəs işdə sizə uğurlar!

***Şahvələd Əliyev,***
***rəssam-yazıçı***
**10.12.2019**